AZƏRBAYCAN RESPUBLİKASI

SAMUX RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

№ 75 «16» sentyabr 2022-ci il

**“Samux Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Komissiyanın yaradılması haqqında”**

“İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 171 saylı 30 may 2014-cü il tarixli Qərarı ilə təsdiq edilmiş İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamənin 2.3-cü və “Yerli İcra Hakimiyyətləri haqqında” Əsasnamənin 6.8-ci bəndlərini rəhbər tutaraq

**q ə r a r a   a l ı r a m:**

1. Samux Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi yerli icra hakimiyyəti əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institunun nümayəndələrindən isə 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

Kəmalə Xəlilova - Samux Rayon İcra Hakimiyyəti Başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Rövşən Qurbanov - Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Azərbaycan Respub. Samux rayon İcra Hakimiyyəti Başçısının Aparatı
SƏNƏDLƏR ÜÇÜN

ƏSLİ İLƏ DÜZDÜR

| | |
|---|---|
| Qurban Həsənov - | Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri |
| Azər Nəsibov - | Samux Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri |
| Vasif Quliyev - | Qarabağ Müharibəsi Əlilləri,Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Samux rayon təşkilatının sədr müavini |
| Gəray Bayramov - | Rayon Ağsaqqallar Şurasının sədri |
| Zakir Rzayev - | Rayon Ziyalılar cəmiyyətinin sədri |
| Natiq Hüseynov - | Azərbaycan Təhsil işçiləri Azad Həmkarlar İttifaqı Samux rayon Komitəsinin sədri |
| Məmməd Musayev - | Dövlət qulluqçuları və xidmət təşkilatları Azad Həmkarlar İttifaqı Samux rayon Komitəsinin sədri |

3. Seçki komissiyasına tapşırılsın ki, rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində ( www.samux-ih.gov.az), "Yeni Samux" qəzetində, feysbook səhifəsində rayon İcra Hakimiyyətinin məlumat lövhəsində və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması barədə elanın verilməsini təmin etsin.

4. Komissiyaya tapşırılsın ki, Samux Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya seçkilərin İctimai şuranın vətəndaş cəmiyyəti institutu tərəfindən seçilməsinə dair əsasnamənin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

5. Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elşad Zöhrabova tapşırılsın ki, sərəncamın aidiyyatı üzrə çatdırılmasını təmin etsin.

6. Sərəncamın icrasına nəzarət Samux Rayon İcra Hakimiyyəti başçısının Birinci müavini Tahir Qarayevə həvalə edilsin.

**İcra Hakimiyyətinin başçısı:** **Alı Qocayev**

SƏNƏDLƏR ÜÇÜN

ƏSLİ İLƏ DÜZDÜR